# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/12** **15 aprel 2020-ci il**

**“Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı”nın təsdiq edilməsi barədə**

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran vəzifələrin həllinə dair” 2020-ci il 8 aprel tarixli sərəncamının 2-ci bəndininin icrasını təmin etmək, habelə 2020-ci il 14 aprel tarixində auditor təşkilatalarının və sərbəst auditorların iştirakı ilə keçirilmiş “Pandemiya şəraitində auditor xidmətinin qarşısında duran problemlərin və vəzifələrin həllinə dair” distant vebinarda verilmiş təklif və tövsiyələr əsasında İşçi Qərargah tərəfindən hazırlanmış “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı”nı nəzərdən keçirərək **qərara alıram:**

1. Auditorlar Palatasında yaradılmış İşçi Qərargah (S.Gülməmmədov) tərəfindən hazırlanmış “Pandemiyaya qarşı mübarizə və onun nəticələrinin aradan qaldırılmasına dair Azərbaycan Respublikası Auditorlar Palatasının Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).
2. Məsul icraçılara tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
3. İşçi Qərargaha tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin yerinə yetirilməsi ilə əlaqədar hər həftə arayış hazırlayıb Palata sədrinə təqdim etsinlər.
4. İşçi Qərargaha (S.Gülməmmədov, F.Qarayev, N.Talıbov) tapşırılsın ki, bu sərəncamın icrası ilə əlaqədar Auditorlar Palatasının 2020-ci il üzrə iş planında nəzərdə tutulmuş işlərlə bağlı müvafiq dəyişikliklərin aparılmasına dair təkliflərini təqdim etsinlər.
5. Auditorlar Palatası sədrinin müşavirinə (F.Qarayev), Rəqəmsal transformasiya və innovasiyaların tətbiqi idarəsinin rəisinə (Q.Əhmədov), Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdirinə (F.Kamalova) tapşırılsın ki, bu sərəncamın mətninin və Tədbirlər Planının Azərbaycan, ingilis və rus dillərində Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsini təmin etsinlər.
6. Bu sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın sədri** **Vahid Novruzov**